# Dahi şairin yubileyinə həsr olunan yay düşərgəsi (Şamaxı)



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də qeyd etdiyi kimi: "Bizim əsas birləşdirici amilimiz birliyimizdir, etnik köklərdir, ortaq tarixdir, mədəniyyətdir. Budur, bizi birlikdə gücləndirən amillər".

Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun ölkə mətbuatında dərc olunmuş "Ümumtürk diasporunun formalaşmasında önəmli mərhələ" adlı məqaləsində xüsusi vurğulanan "Ümumtürk diasporu zamanın tələbidir" fikri də məhz ölkə başçısının tövsiyələrindən qaynaqlanır. Axı bu gün azərbaycanlılar dünyada bizim bildiyimizdən çox, təsəvvür etdiyimizdən daha güclüdürlər. Hədəflərimizdən biri budur ki, planetimizin müxtəlif yerlərində yaşayan azərbaycanlılar bir-birini tanısın, birləşsin, şəbəkələşsin və bir az da güclənsin. Bu mənada, Diaspor Gənclərinin Yay düşərgələrinin təşkili Azərbaycan diaspor siyasəti tarixinin qızıl xəttidir, desək, yanılmarıq.

Diaspor gənclərinin düşərgələrinin təşkili dünyada yayılmış təcrübədir və əzəli vətəninin sərhədlərindən kənarda yaşayan insanların bir araya gətirilməsi üçün olduqca faydalıdır. Artıq iki ildir ki, Azərbaycan da bu təcrübədən istifadə edir.

Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Azərbaycan Diasporuna Dəstək Fondunun təşkilatçılığı, Gənclər və İdman Nazirliyi, Azərbaycan Gənclər Fondunun tərəfdaşlığı ilə bu il iyulun 8-dən 14-nə qədər Şamaxı şəhərində Diaspor Gənclərinin II Yay Düşərgəsi təşkil edilib. Düşərgə böyük Azərbaycan mütəfəkkiri İmadəddin Nəsiminin 650 illiyinə həsr olunub və dahi şairimizin adı ilə bağlı ən maraqlı layihələrdən sayıla bilər.

Qeyd edək ki, bu, xaricdə yaşayan azərbaycanlı gənclər üçün ikinci yay düşərgəsidir. Birincisi Şəki şəhərində keçirilib və 37 ölkədən 100-dən çox azərbaycanlı, II düşərgədə isə 50-dən çox ölkədən yenə də 100-dən çox gənc iştirak edib.

İlk baxışda, bəlkə də, yay düşərgəsi daha çox istirahət təsiri bağışlaya bilər. Komitənin təqdim etdiyi proqram isə tamam başqa mənzərə yaradır və ictimai-siyasi, tarixi aspektlər baxımından daha dərin xarakteri ilə seçilir. Maraqlısı odur ki, heç vaxt ana vətənində olmayan bir çox gənc məhz bu yolla Azərbaycana gəlir, əzəli vətəni ilə bağlar qurmağa, ölkəni yaxından tanımağa və tanıtmağa çalışır.

Düşərgəyə gələn gənclər Azərbaycanın tarixi-memarlıq abidələrini ziyarət edir, rəsmi və tanınmış şəxslərlə, Qarabağ müharibəsinin iştirakçıları ilə görüşür, qrup müzakirələri aparır, əyləncəli-maarifləndirici tədbirlərə qatılırlar.

Nəsimişünas alim, filologiya üzrə fəlsəfə doktoru Səadət Şıxıyevanın İmadəddin Nəsiminin həyat və yaradıcılığı barədə geniş məlumatı da xaricdə yaşayan gənc soydaşlarımız tərəfindən böyük maraqla qarşılanıb.

Yay düşərgəsi xatirələrdə maraqlı və istedadlı gənclərlə də iz qoyur. Diaspor Gənclərinin II Yay Düşərgəsinin iştirakçısı Aras Zarinebaf onlardan biridir. O, Amerikada doğulub, hazırda Çikaqoda





yaşayır və universitetdə təhsil alır. Aras hər zaman Azərbaycanla maraqlanıb və hətta dilimizi öyrənməyə də çox həvəslidir. O, bizimlə söhbətində bildirdi ki, Amerikadakı Azərbaycan diaspor təşkilatları ilə sıx əlaqə qurub, adətlərimizi, musiqimizi öyrənməyə maraq göstərir.

Aras hətta "Bayatı-Şiraz"a könül verdiyini deyir və "Qarabağı xatırlama" günündə udda "Bayatı-Şiraz" ifa etdiyini yada salır.

Evlərində hər zaman Azərbaycan bayrağı olduğundan danışır və hər bir millətin mütləq öz ana dilini bilməli olduğunu xüsusi vurğulayır. Hətta ABŞ-da rastlaşdığı bəzi azərbaycanlıların rus dilində danışmasından narahatlığını da dilə gətirir.

Düşərgədə diqqətimizi çəkən başqa bir soydaşımızla da söhbətləşdik. Qorqud Zülfüqarlı kiçik yaşlarından ailəsi ilə birlikdə Koreyaya köçüb.

O, uşaqlıqdan burdan ayrılıb və heç vaxt Azərbaycana gəlməyib. Düşərgənin təşkili ilə bağlı elanı görən Qorqud orada iştirak etmək qərarı verəndə müəyyən qorxu hissi keçirdiyini də dilə gətirdi. Deyir ki, fərqli mədəniyyətlərin həyəcanını yaşadım. Necə olacağını bilmirdim, hansı insanlarla qarşılaşacağımı düşünürdüm.

Özünü həm azərbaycanlı, həm də koreyalı hesab edən Qorqud azərbaycanca təmiz danışır. Bildirir ki, "Vətənimi daha yaxından tanımağa gəlmişəm. Burda çox şey dəyişib və mənə yaddır, amma maraqlıdır ki, özümü yad kimi hiss etmirəm."

Gənclərin təəssüratının dolğunluğu onu göstərir ki, Diasporla İş üzrə Dövlət Komitəsinin belə irimiqyaslı layihələri harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlıya bu ölkənin, bu torpağın, bu xalqın bir parçası olduğunu hiss etdirir.



Məsələnin önəmli tərəflərindən biri də odur ki, həmin gənclər daha sonra müxtəlif təşkilatlarda birləşir və şəbəkələşirlər. İki dəfə reallaşan Diaspor Gənclərinin II Yay Düşərgəsinin vasitəsilə xaricdə doğulan, xaricdə yaşayan onlarla gənc "mən də azərbaycanlıyam" deyir və Ana Vətənini tanımağa başlayır.

Yaxın illər üçün nəzərdə tutulan daha iri bir layihənin – türkdilli dövlətlərin diaspor gənclərinin yay düşərgələrinin təşkili isə türk dünyasına daha böyük bir ərməğan ola bilər.

Vəsilə Vahidqızı